**“Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Qanununun layihəsində (bundan sonra – Layihə) biznes və vətəndaş yönümlü dəyişikliklər haqqında məlumat**

**Maddə 1. Bu Məcəllədə istifadə olunan əsas anlayışlar**

1.1.57. səlahiyyətli mal göndərən – gömrük orqanları tərəfindən malları göndərən gömrük orqanına təqdim etmədən, birbaşa öz ünvanından yola salmaq səlahiyyəti verilmiş şəxs;

1.1.58. səlahiyyətli mal alan – gömrük orqanları tərəfindən malları təyinat gömrük orqanına təqdim etmədən, birbaşa öz ünvanında qəbul etmək səlahiyyəti verilmiş şəxs.

**Qeyd:** *Layihədə anlayışlar hissəsinə əlavə edilməsi təklif edilmiş, səlahiyyətli mal alan və göndərən institutu mahiyyətindən göründüyü kimi xarici ticarət iştirakçılarına malların tranziti ilə bağlı xüsusi üstünlüklər verməkdədir. Qeyd olunan üstünlüklərin gömrük orqanları tərəfindən mərhələli şəkildə tətbiqi nəzərdə tutulur.*

**Maddə 28. Gömrük daşıyıcısı**

28.4. Müvafiq icra hakimiyyəti orqanı gömrük daşıyıcılarının siyahısını nəşr edir, rəsmi internet saytında yerləşdirir və müvafiq məlumatların daimi yeniləşdirilməsini təmin edir.

**Qeyd:** *Layihədə əlavə edilən bu dəyişiklik nəticəsində daşıyıcıların siyahısının nəşr edilərək gömrük xidmətinin rəsmi internet saytında yerləşdirilməsi xarici ticarət iştirakçıları tərəfindən daşıyıcıları əlçatan edəcək, eləcə də bu xidməti həyata keçirən şəxslərin uçotu və elektron tarixçəsi formalaşdırılacaqdır.*